

# NAFTALAN

# MÖCÜZƏLİ VƏ ŞÖHRƏTLİ GÖZƏLLİK MƏKANINA ÇEVRİLİR

**Naftalan nəinki Azərbaycanda, bütün bölgədə nadir bir gözəllik məkanına çevrilməlidir. Mən əminəm ki, bir neçə ildən sonra bölgədə Naftalan kimi gözəl, yaraşıqlı, rahat şəhər olmayacaqdır.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Dünyanın nadir incisi olan, nəhəng Qafqazın ən zəngin torpaqlarında yerləşmiş Azərbaycan, malik olduğu zəngin yeraltı və yerüstü sərvətləri, praqmatik dövlət başçısının yüksək templə apardığı layihələr və innovatik inkişaf getdikcə daha böyük nailiyyətlər vəd edir və yeni zirvələri fəth etməsinə stimul verir. Yer üzünün belə möcüzəli və əfsanəvi məkanlarından olan şanlı Naftalana dövlət başçısının sonsuz diqqət və qayğısı nəticəsində, öz keçmiş şöhrətini qaytarmış, sözün əsl mənasında dünya səviyyəsində təbabəti, təbiəti və qonaqpərvərliyi ilə xalqımızın imicini zənginləşdirmişdir. Bu gün Naftalan dünya əhəmiyyətli balneoloji kurort kimi məşhurlaşmışdır. Dünya standartlarına cavab verən otellər, pansionatlar və parklar ansambl yaradaraq ecazkar bir mənzərə yaratmış, zövqlə salınmış yaşıl qazonlar arasından boylanan gül-çiçək ətrafa sanki təravət, ruha qida verir.

**Möhtərəm ölkə Prezidenti cənab İlham Əliyev Naftalan şəhərinə səfəri çərçivəsində ictimaiyyətlə görüşü zamanı Naftalanın inkişafının vacibliyini xüsusi qeyd edərək qarşıya belə bir vəzifə qoyaraq demişdir: “Naftalan haqqında çox eşitmişdim və burada mənim iki şey diqqətimi çəkdi. Birincisi, buranın gözəl təbiəti və şəhərin planlı şəkildə qurulması. Yəni buranın xiyabanları, yolları, küçələri, ağacları, parkları mənə çox böyük təsir göstərdi. Mən burada şəhərin elə bil ki, keçmiş gözəlliyini gördüm. Bir də demək istəyirəm ki, bugünkü gün Naftalanın yeni tarixinin başlanğıcıdır. Əminəm ki, bir neçə ildən sonra biz istədiyimizə nail olacağıq və Naftalan dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir”. Artıq bu arzular sözdən reallığa çevrilmiş, şəhər davamlı inkişafdadır.**

Ümumiyyətlə, Naftalan şəhərinin iqtisadiyyatının əsasını kurort-sanatoriya xidməti təşkil edir. Bu zonada nadir təbii müalicə amili kimi tanınan Naftalan nefti mədənləri yerləşir. Naftalan neftinin hikməti isə hamıya bəllidir. Unikal müalicəvi əhəmiyyətə malik olan bu neftin dünyada analoqu yoxdur və bundan 70-dən çox xəstəliyin müalicəsində istifadə olunur. Xüsusən naftalanın hərəkət-istinad, nevroloji, damar, uroloji, ginekoloji və dəri xəstəliklərinin müalicəsində böyük əhəmiyyəti vardır. SSRİ dönəmində Naftalan Kurortu İttifaqda fəaliyyət göstərən kurortlar arasında öz müalicəvi əhəmiyyətinə və 80-85% effektlik əmsalına görə ön sırada olub. Naftalan nefti Azərbaycanın ən qiymətli təbii sərvətlərindən biridir. “Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq Naftalanda geniş tədbirlər həyata keçirilmişdir. Hazırda dövlət başçısının sərəncam və tapşırıqlarına uyğun olaraq dünyanın unikal şəhərlərindən biri olan Naftalanın yüksək səviyyəli sanatoriya-kurort mərkəzinə çevrilməsi ilə bağlı işlər uğurla davam etdirilir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasına həsr olunmuş konfransda Prezidentimiz cənab İlham Əliyevin qeyd etdiyi kimi, “Naftalanın keçmiş şöhrəti bərpa edilir. Naftalan vaxtilə Ümumittifaq turizm mərkəzi idi. Bu gün bunu beynəlxalq turizm mərkəzinə çeviririk”. Həqiqətən də, bu gün kurort şəhəri özünün inkişafının yeni mərhələsinə qədəm qoyub. Burada aparılan hər bir tikinti, quruculuq işi Naftalan kurortunun şöhrətini özünə qaytarır, müasir kurort şəhərinə çevirir və biz gələcəkdə daha böyük inkişafın şahidi olacağıq.

Hazırda küçə və yollarda, binaların həyətlərində geniş abadlıq işləri aparılır, balaca fidanların istirahəti üçün bütün lazımi şəraitlər yaradılır. Şəhərdaxili yolların asfaltlanması sahəsində də xeyli işlər görülüb. Sakinlərin və şəhərə gələn qonaqların mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün istirahət parkları salınmışdır.

Bütün şəhər əhalisinin böyük sevincinə səbəb olan ən mühim hadisə iyul ayının 5-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naftalan şəhərinə 5-ci dəfə növbəti səfəri olmuşdur. Ümumiyyətlə, bu səfərlər ölkə başçısının Naftalan kurort şəhərinə olan diqqət və qayğısının təzahürüdür. Möhtərəm Prezident həmin gün müasir səviyyəli yeni şəhər xəstəxana binasının açılış mərasimində iştirak etmiş, tibb işçiləri ilə görüşmüş, Naftalanın inkişafı ilə bağlı tapşırıqlar vermişdir.

Naftalan nefti əsasında müalicə olunmaq istəyən turistlərin, eləcə də səhhətində müəyyən problemlər olan insanların sayının çoxluğu nəzərə alınaraq şəhərdə daha bir müalicə mərkəzi inşa olunmuş və cari ilin yay mövsümündə istifadəyə verilmişdir. Ümumi sahəsi 300 kvadratmetrə yaxın olan yeni müalicə mərkəzi 2 mərtəbədən, 12



otaqdan ibarətdir. Burada 15 nəfər daimi işlə təmin olunmuşdur. Hazırda Yeni Avtovağzal otel kompleksində davam etdirilən tikinti işlərində 30 nəfər çalışır. İnşaat işləri yekunlaşdıqdan sonra burada 40-50 nəfərin daimi işlə təmin olunması nəzərdə tutulur. Yenidən qurulan 10 mərtəbəli Naftalan mehmanxanasında 30 nəfər müvəqqəti işlə təmin edilib. Hazırda binada işlər davam etdirilir. Mehmanxana Naftalan Hotel & SPA adı altında fəaliyyət göstərəcəkdir. Bura istifadəyə verildikdən sonra 55 nəfər daimi işlə təmin ediləcəkdir. Dövlət başçısının yeni iş yerlərinin açılması ilə bağlı göstərişi əsasında dövlət qurumları tərəfindən verilən vakansiyalar əsasında Naftalanda 226 nəfər işlə təmin olunmuşdur. Şəhərdə aparılan abadlıq və təmizlik işləri üzrə isə 150 müvəqqəti yeni iş yeri yaradılmışdır. Məşğulluq Mərkəzinə müraciət edən 492 nəfər işaxtarandan 232 nəfəri işlə təmin olunmuşdur ki, onlardan 87 nəfəri qadınlardır. Ümumilikdə son illərdə sahibkarlar tərəfindən tikilib istifadəyə verilmiş müasir səviyyəli yeni müalicə və istirahət mərkəzlərində hazırda 1000 nəfərə yaxın vətəndaş işləyir.

Ölkə başçısının 7 aprel 2016-cı il tarixli “Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” Sərəncamına uyğun olaraq işaxtaran aztəminatlı şəhər sakinlərinin özünüməşğulluğa cəlb edilməsi 2017-ci ildə daha da genişləndirilmiş və şəhər üzrə özünüməşğulluğa cəlb olunanların sayı 53 nəfərə çatdırılmışdır. Hazırda həmin 53 nəfər vətəndaş özünüməşğulluq təlimlərinə cəlb edilmiş və yaxın günlərdə təlimlərdə özünüməşğulluq fəaliyyəti üçün potensial imkanları nəzərə alınmaqla yüksək nəticə göstərən şəxslər biznes planlarında nəzərdə tutulmuş profil üzrə mal-qara və avadanlıqlarla təmin olunacaqlar. Bu layihədə əsas məqsəd ona yönəlib ki, həmin vətəndaşlar öz ailələri və həyat səviyyələrinin yüksəldilməsi üçün uğurlu biznes qura bilsinlər.

Təhsil, səhiyyə, mədəniyyət və idman sahəsi şəhər icra hakimiyyəti tərəfindən daim diqqət mərkəzində saxlanılır. Şəhərin təhsil müəssisələrində Təhsil şöbəsinin tədbirlər planına uyğun olaraq müvafiq işlər görülmüş, təhsil müəssisələrinə daim nəzarət edilir, tədrisin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə tədbirlər görülür. Şəhər İcra Hakimiyyəti tərəfindən məktəblərdə davamiyyətə, dərs prosesinin gedişatına mütəmadi olaraq nəzarət edilir və istedadlı gənclərin aşkara çıxarılması sahəsində məqsədyönlü işlər aparılır.

Şəhərin ümumtəhsil məktəblərinin şagirdlərindən ibarət qrup “Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində Lənkəran, Masallı və Astara marşrutu üzrə növbəti maarifləndirici tur-aksiyaya qoşulmuş və həmin bölgələrin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış olmaq imkanı əldə etmişlər.

Heydər Əliyev Mərkəzinin ideoloji mərkəz kimi işinin təşkili, ulu öndərin həyat və fəaliyyətinin, zəngin dövlətçilik irsinin öyrənilməsi məqsədilə Mərkəzdə illik iş planı əsasında ardıcıl işlər aparılır. “Müasir Azərbaycanın banisi, xilaskarı və qurucusu Heydər Əliyev” və “İlham Əliyev Heydər Əliyev siyasi kursunun davamçısıdır” və digər mövzularda tədbirlər təşkil olunur. Eyni zamanda, YAP Naftalan şəhər təşkilatının Gənclər Birliyinin təşkilatçılığı ilə gənclər mütəmadi olaraq Mərkəzdə görüşlər, tədbirlər təşkil edirlər. Təkcə bu il Heydər Əliyev Mərkəzinə 2637 nəfər ekskursiya etmişdir ki, onlardan 309 nəfəri xarici ölkə vətəndaşı olmuşdur. Heydər Əliyev Mərkəzi ilə tanış olan hər bir şəxsə Mərkəzin əməkdaşları tərəfindən ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotoşəkillər barədə geniş məlumat verilmişdir.

Şəhər gənclər və idman idarəsi bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi, yeniyetmə və gənclərlə işin təşkili istiqamətində də xeyli işlər görmüşdür. Çox sevindirici haldır ki, şəhərin gənc idmançıları və Uşaq-Gənclər İdman məktəbinin məşqçi-müəllimləri respublika, zona və hətta digər ölkələrdə keçirilən turnirlərdə uğurlu çıxış edərək yüksək göstəricilər əldə etmişlər. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar və Təhsil nazirlikləri ilə birgə Azərbaycan Dövlət Televiziyasının bazasında “Mən Azərbaycanlıyam” adlı intellektual telelayihədə Naftalanı təmsil edən gənc birinci yeri qazanaraq yarışın qalibi olmuşdur.

Dövlət başçısının tapşırığına əsasən bu il də fevral ayından başlayaraq şəhərin səhiyyə müəssisələri tərəfindən əhalinin icbari tibbi müayinəsi tədbirlərinə başlanılmış, müəyyən olunmuş müddət ərzində icbari tibbi müayinə tədbirləri yüksək keyfiyyətlə başa çatdırılmışdır. Müayinə dövründə 7 mindən çox sakinin pulsuz tibbi müayinədən keçməsi təmin edilmişdir.

Ölkə Prezident cənab İlham Əliyevin iştirakı ilə açılışı olan müasir yeni 60 çarpayılıq şəhər xəstəxanası 1,2 hektar ərazidə yerləşir. Tikintinin ümumi sahəsi 8000 kvadratmetrdən çoxdur. Xəstəxanada cərrahiyyə, doğum bloku, doğumdan sonrakı fizioloji və hamiləliyin patologiyası şöbələri yaradılıb. Bu müəssisənin laboratoriya şöbəsi ən müasir avadanlıqla təchiz olunub. Bu da laborator müayinələri yüksək keyfiyyət, dəqiqlik və qısa müddətə aparmağa imkan verir. Burada, eyni zamanda, şüa diaqnostika, qəbul, poliklinika, reanimasiya, intensiv terapiya şöbələri fəaliyyət göstərəcək. Əməliyyat bloku da müasir tibbi avadanlıqla təmin edilib. Xəstəxananın bütün şöbələrində ən müasir tibb avadanlıqları quraşdırılıb. Bu dövlət tərəfindən həm tibb işçilərinin iş şəraitinin yaxşılaşmasına, həm də şəhər əhalisinə göstərilən tibbi xidmətin səviyyəsinin yüksəlməsinə əvəzsiz töhfədir.

Bu gün Naftalan şəhərinin bütün sahələrdə inkişafının əsasını ölkə başçısının irəli sürdüyü proqramların və qarşıya qoyduğu vəzifələrin uğurlu icrası təşkil edir. Məhz bu tapşırıqların yerinə yetirilməsinin nəticəsidir ki, Naftalanda istər turizm, istərsə də şəhərin infrastrukturunda irimiqyaslı layihələr həyata keçirilmiş, böyük quruculuq işləri aparılmış və bu gün də davam etdirilir. Şəhər sakinlərinin mənzil-kommunal şəraitinin yaxşılaşdırılması istiqamətində bir neçə il bundan əvvəl mövcud problemlərin həlli istiqamətində başlanmış layihələrin icrası uğurla davam etdirilmişdir. Dövlət proqramlarının icrası nəticəsində şəhərdə istilik, qaz, su-kanalizasiya təchizatının yaxşılaşdırılması sahəsində işlər tam başa çatdırılmışdır.

Şəhərdə görülmüş və hazırda uğurla davam etdirilən işlər əhali tərəfindən rəğbətlə qarşılanır. Həyata keçirilən tədbirlər nəticəsində vətəndaşların həm kommunal sahədə, həm də ümumi həyat şəraitlərində mövcud olan bir sıra problemlər öz həllini tapmışdır. Küçələrdə, çoxmənzilli yaşayış binalarının qarşısında səliqə-sahman yaradılmış, mini parklar, piyada yolları salınmışdır. Heydər Əliyev parkına, Şıxəli Qurbanov küçəsindəki mini parka və şəhərdaxili yolların kənarına ümumilikdə 5000 kvadratmetr əraziyə qazon döşənmiş, 1000-dən artıq müxtəlif növ dekorativ ağac və gül kolları əkilmişdir. Şəhərdən Xəstəxana istiqamətinə gedən yolun sağ və sol hissəsində 1500-ə yaxın Eldar şamı əkilmiş, sözügedən yola yeni yol daşları, işıq dirəkləri düzülmüş, səki salınmış və asfalt örtüyü vurulmuşdur. Şəhərin girişindən başlayaraq bütün elektrik dirəkləri rənglənmiş, 1 nömrəli tam orta məktəbdən Heydər Əliyev parkı istiqamətində olan yol işıqlandırılmışdır. Uzun müddət baxımsız qalmış şəhərdəki Üçbulaq adlanan bulağın ətrafı təmizlənərək abadlaşmış, ətrafına tamet daş döşənmiş və bulağa suyun verilməsi bərpa olunmuşdur. Səməd Vurğun parkında təmir işlərinə başlanılmışdır. Səki daşlarının altı mişar daşı ilə hörülmüş və 1575 m səki daşı düzülmüşdür. Səkilərə qum, çınqıl qarışığı verilmiş, metal tor qoymaqla 3000 kvadratmetrə düzülmüşdür. Parkda ümumi sahəsi 250 kvadratmetr olan müasir standartlara uyğun və bütün fəsillərdə istifadəsi nəzərdə tutulan açıq və qapalı kafenin tikintisi işləri aparılır. Bundan başqa, parkda ümumi sahəsi 34 kvadratmetr olan 4 girişli sanitar qovşağının özülü betonlanmışdır. Parkdakı əsaslı təmir işlərinin ilin sonunadək başa çatdırılması nəzərdə tutulmuşdur. Bununla yanaşı, hazırda Nəriman Nərimanov parkında da təmir işlərinə başlanmışdır. 3 beşmərtəbəli yaşayış binasının girişləri əsaslı təmir olunmuş, suvaq və rəngləmə işləri aparılmışdır. Pilləkən və məhəccərlər təmir edilmişdir. Hazırda 23 nömrəli çoxmənzilli yaşayış binasının girişində təmir işləri davam etdirilir. Qeyd olunan işlər mərhələli şəkildə digər binalarda aparılacaqdır.

Rabitə xidmətinin yaxşılaşdırılması məqsədilə blokları təmir olunan çoxmənzilli yaşayış binalarında rabitə xətləri dəyişdirilərək yeniləri ilə əvəzlənmişdir. Qaşaltı Qaraqoyunlu kəndində əhalinin telefona olan tələbatını ödəmək məqsədilə 1 ədəd 16 abonentlik abunəçi kartı və 1 ədəd 48 portluq ADSL avadanlığı quraşdırılaraq sakinlərin istifadəsinə verilmişdir. Qurban Namazəliyev adına yaşayış massivində yeni dirəklər basdırılmış, növbədə olan 129 nəfərə yeni telefon xətti çəkilmişdir. Sözügedən yaşayış massivində sakinlərin tam telefonlaşması işləri davam etdirilir. Qasımbəyli kəndində istismara yararsız rabitə kabellərinin bir hissəsi yenisi ilə əvəz olunaraq texniki normalara uyğun çəkilmişdir. Şəhər üzrə 1110 abunəçi yüksəktezlikli internet xidmətlərindən istifadə edir.



Əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə abonentlərə öncədən ödəmə sistemli smart elektron su sayğaclarının quraşdırılması davam etdirilmiş, artıq 789 abonent bu sayğacdan istifadə edir. Su və kanalizasiya xətlərində baş vermiş qəza halları qısa müddətdə aradan qaldırılmışdır. Hazırda Naftalan şəhərində sutkalıq məhsuldarlığı 3000 kubmetr olan bioloji tipli Çirkab Suların Təmizləyici Qurğusunun tikintisinə başlanılmışdır. Bu qurğu istismara verildikdən sonra Naftalan şəhərində yaranan tullantı suları təmizlənib zərərsizləşdiriləcək və ətraf mühitə ziyan vurmadan kənarlaşdırılacaqdır.

Ümumilikdə son illərdə Naftalan həm nadir müalicəvi neftinə, həm də müalicə və istirahət üçün yaradılan müasir infrastrukturuna görə turistlər üçün cəlbedici məkana çevrilmişdir. Buna görə də ildən-ilə burada dincələn və müalicə olunan turistlərin sayı artır. Cari ilin 9 ayında Naftalan şəhərinin kurort-sanatoriya və istirahət mərkəzləri 28 mindən çox turist qəbul etmişdir. Bunlardan 8874 nəfəri xarici turist olmuşdur. Xarici ölkələrdən gələnlərin sayında 2017-ci ilin 9 ayı ilə müqayisədə 26,3 faiz artım müşahidə olunmuşdur. Bir faktı da qeyd etmək lazımdır ki, “Chinar”, “Gashalti Health Hotel” və “Garabag Resort & SPA” otellərində Novruz bayramı və sonrakı ilk 3 gün ərzində boş yer olmayıb və ümumilikdə həmin günlərdə 2500 nəfərdən çox turist müalicə almışdır.

Hazırda şəhərdə fəaliyyət göstərən 3-ü beş ulduzlu olmaqla 10 sanatoriya və müalicə mərkəzi 2200 turisti qəbul edə bilir. Amerika Birləşmiş Ştatlarının geniş auditoriyaya malik olan “Con Batçelor Şou” radioverilişinin aparıcısı Con Batçelor Azərbaycana səfəri zamanı Naftalan şəhərinə də səfər etmiş və radioverilişin reportajlarından birini möcüzəli və şəfaverici Naftalan neftinə həsr etmişdir.

Naftalan kurort şəhərinin inkişafı və keçmiş şöhrətinin bərpası ölkə başçısının daim diqqətdə saxladığı məsələlərdəndir. “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli müavafiq Fərmanı Naftalan şəhərinin perspektiv inkişafına təkan verən strateji qərarlardan biridir. Strateji Yol Xəritəsinin tədbirlər planının 3.1.-Sağlamlıq turizmi üçün tələbatın yenidən formalaşdırılması bölməsində Naftalanda turizmin inkişafı məqsədilə mühüm tədbirlərin; Naftalan nefti əsasında mövcud və yeni sağlamlıq məhsullarının təşviqi, Naftalanda turistlər üçün digər cəlbedici yerlərdə bərpa və yenidənqurma işlərinin aparılması, eləcə də Bakı və Naftalan arasında sürətli və yüksək keyfiyyətli avtobus və qatarların istifadəyə verilməsi işlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Strateji Yol Xəritəsinin müvafiq bəndlərinin icrası ilə bağlı hazırda Naftalan neftinin müalicəvi əhəmiyyətinin, həm də “Chinar Hotel & Spa Naftalan”ın və “Gashalti Health Hotel”in Avropa ölkələrində tanıdılması məqsədi ilə sözügedən turizm obyektlərinə Avropa standartlarına uyğunluq sertifikatı verilmişdir. Eyni zamanda, Naftalan nefti əsasında məhsullar hazırlayan “Qətransız Naftalan məlhəmi” MMC-nin istehsal etdiyi məhsulların “Made in Azerbaijan” brendi altında xarici bazarlara çıxarılır və bu istiqamətdə işlər aparılır. Bu həm şəhərin iqtisadiyyatının inkişafına və həm də Naftalan neftinin tanıdılmasına əlavə təkan verəcəkdir.

İnamla demək olar ki, möcüzəli Naftalan qədim və şərəfli tarixinə ehtiramı və nəsillərə yadigar qalacaq möhtəşəm tikililəri, mədəniyyəti, əfsanəvi müalicəvi kurort və sanatoriyaları, milli mənəvi dəyərləri qoruyub saxlanması ilə ən yeni tarixinin şərəfli səhifələrinə uğurla imza atdığını işi və əməli ilə bir daha sübut edir.

Dövlət proqramlarında Naftalan şəhəri üzrə nəzərdə tutulmuş tədbirlərin uğurlu icrası nəticəsində bu möcüzəli kurort şəhəri günü-gündən genişlənərək, kompleks inkişaf edərək, dünyanın ən gözəl, təmiz və müasir kurort şəhərlərindən birinə çevrilmişdir.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**







